# "AQROLİZİNQ" KƏND TƏSƏRRÜFATININ İNKİŞAFINA ƏHƏMİYYƏTLİ XİDMƏT GÖSTƏRİR

Kənd təsərrüfatının inkişafına dövlət dəstəyinin gücləndirilməsi, yeni çağırışlara uyğun sahə üzrə strateji hədəflərin və institusional dəyişikliklərin müəyyən edilməsi sahənin keyfiyyətcə yeni mərhələyə keçməsinin təməlini qoymuşdur. Əhalinin ərzaq məhsulları ilə etibarlı təmin edilməsində ölkədə müxtəlif istiqamətli fermer təsərrüfatları fəaliyyət göstərir. Regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramları çərçivəsində bölgələrin inkişafında kənd təsərrüfatının əhəmiyyəti böyükdür.

Dövlətin fermerlər üçün bir sıra güzəştlər müəyyən etməsi aqrar sahənin inkişafına öz müsbət təsirini göstərməkdədir. Belə ki, kənd təsərrüfatı məhsulları istehsalçıları, torpaq vergisi istisna olmaqla, vergilərdən azad edilmişlər. Fermer və sahibkarlar güzəştli şərtlərlə kredit, toxum, "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən lizinqə verilən və lizinq yolu ilə satılan gübrə, texnika, damazlıq mal-qara almaq imkanlarına malikdirlər. Eyni zamanda, əkin sahəsinin becərilməsində istifadə olunan yanacaq üçün dövlət subsidiyalar verir.

Ölkə Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlətimizin başçısı kənd təsərrüfatında əldə edilən inkişafla bağlı demişdir ki, qeyri-neft sənayemiz 2,4 faiz, kənd təsərrüfatı isə 3,1 faiz artıb. Ancaq əminəm ki, xüsusilə kənd təsərrüfatı istehsalı ilin sonuna qədər daha da artacaq.

Kənd təsərrüfatının inkişafına yeni təkan vermək və onun modernləşdirilməsini sürətləndirmək, aqrar sektorda mövcud problemlərin həllinə sistemli və kompleks yanaşmanı təmin etmək, bu sahəyə dövlətin inzibati və maliyyə resurslarını səmərəli şəkildə cəlb etmək, ölkəmizin aqrar potensialını geniş təbliğ etmək məqsədi ilə Kənd Təsərrüfatı Nazirliyi miqyaslı işlər həyata keçirir.

Son günlər rayon kənd təsərrüfatı idarələri üçün milli arxitektura üslubunda inşa edilmiş binaların istifadəyə verilməsi ənənəyə çevrilmişdir.

2005-2016-cı illərdə respublikaya 25628 ədəd texnika, o cümlədən 8100 ədəd traktor, 1869 ədəd kombayn, 15456 ədəd di-



gər kənd təsərrüfatı maşın və avadanlıqları gətirilmişdir. Son üç ildə Səhmdar Cəmiyyət tərəfindən 8414 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikaları, o cümlədən 647 ədəd taxılyığan kombayn, 2955 ədəd traktor, 4793 ədəd traktora qoşulan digər kənd təsərrüfatı texnikaları alınmış və əksəriyyəti kənd təsərrüfatı məhsulları istehsalçılarının istifadəsinə verilmişdir. Ölkəyə gətirilən traktorların 80,78 faizini Gəncə AZİB-də yığılmış "Belarus" markalı traktorlar təşkil edir.

Artıq 2016-cı ilin taxıl biçini mövsümü başa çatmaq üzrədir. "Aqrolizinq" ASC tərəfindən sahibkarlara, fermerlərə və kənd təsərrüfatı məhsulları istehsalçılarına lizinqə verilmiş 801 ədəd kombayn, Cəmiyyətin rayon bölmələrinin istifadəsində olan 618 ədəd kombayn və iri fermer təsərrüfatlarında və digər özəl təsərrüfatlarda olan kombaynlar daxil edilməklə 2400-ə yaxın kombayn biçin mövsümündə iştirak etmişdir.

Taxıl zəmilərində "Aqrolizinq" ASC-nin istifadəsində olan 114 ədəd New HollandTC-5050 (kombayn parkının 18,45 faizi), 53 ədəd Claas Dominator-130 (8,59 faiz), 404 ədəd Sampo Rosenle SR-2045 və SR-2035 (58,9 faiz), 84 ədəd SK-5 ME-1(14,08 faiz) markalı taxılyığan kombayn fermerlərin yetişdirdikləri məhsulun vaxtında və itkisiz yığılmasında iştirak etmişdir.

"Aqrolizinq" ASC-nin istifadəsində olan taxılyığan kombaynlarla yerinə yetirilən işin həcmi kombayn markaları üzrə aşağıdakı kimi olmuşdur. New Holland kombaynları üzrə 21,1 faiz, Claas kombaynları üzrə — 9,78 faiz, Sampo Rosenle kombaynları üzrə 62,35 faiz, SK-5ME-1 və digər kombaynlar üzrə 6,65 faiz təşkil etmişdir.

Dövlət Statistika Komitəsinin 01.08.2016-cı il tarixə olan məlumatına görə, ölkədə 961555 ha taxıl sahəsinin 98,2 faizi, yəni 943850 ha artıq biçilmişdir. Bu günə kimi cəmi 2801489 ton taxıl tədarük edilmişdir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 2 faiz çox məhsul deməkdir. Bu il fermerlərimiz taxıl sahələrinin hər hektarından orta hesabla 29,7 sentner məhsul əldə etmişlər.

Taxılın hər hektardan olan məhsuldarlığına görə Bərdə və Saatlı rayonlarının fermerləri respublika üzrə ən yüksək məhsuldarlıq, yəni 39,9 sent/ha əldə etmişlər.

Ölkə Prezidenti kənd təsərrüfatının, xüsusilə taxılçılığın inkişaf perspektivləri haqqında qarşıya ciddi vəzifələr qoymuşdur: **"Biz hələ ki özümüzü taxılla tam təmin edə bilmirik. Ancaq mən hesab edirəm ki, gələcəkdə biz məhsuldarlığın artırılması hesabına taxılçılığı inkişaf etdirməliyik. Biz iri fermer təsərrüfatlarının timsalında görürük ki, məhsuldarlığı iki dəfə artırmaq olar. Əgər Azərbaycanda taxılçılıqda orta məhsuldarlıq hektardan 50 sentner olarsa, onda bizə yeni torpaq sahələri də lazım deyil".**

"Aqrolizinq" ASC-nin 12 regional nümayəndəliyi üzrə öhdəliklərin icra vəziyyətinin təhlili göstərir ki, mövcud kombaynlardan səmərəli istifadə edilmiş, qarşıya qoyulan vəzifələrin icrası üçün kollektivlər səfərbər edilmişdir. Builki mövsümdə Cəlilabad, Biləsuvar, Neftçala, Bərdə, Xocavənd və başqa rayon bölmələri öhdəliklərini 100 faiz yerinə yetirmişlər.

Taxıl biçini müddətində fer-



merlərdən Kənd Təsərrüfatı Nazirliyinin "Çağrı mərkəzi"nə (tel: 1652) və Cəmiyyətdə yaradılmış "Qaynar xətt"ə daxil olan müraciətlər qeydə alınaraq dərhal icrasının təmin edilməsi üçün müvafiq rayon bölməsinə tapşırılmışdır.

Ötən illə müqayisədə "Aqrolizinq" ASC-nin rayon bölmələrinin istifadəsində olan kombaynların iş həcmi əhəmiyyətli dərəcədə artmışdır. Bu, kombaynlardan istifadənin səmərəsinin yüksəldilməsi göstəricisi kimi dəyərləndirilə bilər.

Ölkə Prezidenti kənd təsərrüfatının ən müasir texnika ilə təmin edilməsi üçün mühüm qərarlar qəbul edir. Belə ki, NK-nin son iclasında kənd təsərrüfatı üçün qarşıdakı iki ildə yeni texnikanın alınması tapşırığı vermişdir: **"Ancaq texnikanın alınmasına iki il ərzində 360 milyon dollar, bu il isə 170 milyon dollar vəsait xərclənəcək. Baxmayaraq ki, biz valyutaya qənaət etməliyik, ancaq bu sahəyə vəsait qoymalıyıq ki, həm məşğulluq artsın, həm də bu, özünü doğruldacaq".**

Cari ilin biçin mövsümündə hörmətli nazirimiz, Heydər Əsədovun Cəmiyyətin rayon bölmələrinə 70 ədəd müasir TC-5050, Dominator 130, SR-2045 və SK-5 ME-1Niva effekt markalı kombayn verməsi rayonlarda yetişdirilmiş taxılın qısa aqrotexniki müddətdə yığılmasına imkan yaratmışdır.

Gətirilən texnikanın istehsalçı ölkələri müxtəlifdir, belə ki, Çin, Rusiya, Almaniya, Belçika, Finlandiyadan gətirilən texnika üstünlük təşkil edir. Kənd təsərrüfatı məhsulu istehsalçılarının istəyinə uyğun olaraq, son iki ildə respublikaya Avropa ölkələrində istehsal edilmiş texnikanın gətirilməsinə üstünlük verilir.

14 iyul 2016-cı il tarixdə Gürcüstanın Kənd Təsərrüfatı nazirinin müavini Yuri Noradze başda



olmaqla nümayəndə heyəti Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyində və "Aqrolizinq" ASC-də olmuşdur. Taxıl biçinində iştirak etmək məqsədi ilə "Aqrolizinq" ASC-yə məxsus müasir taxılyığan kombaynın Gürcüstana göndərilməsi ilə əlaqədar "Aqrolizinq" ASC ilə Gürcüstanın "Müxanizator" MMC arasında müqavilə bağlanmış və 30 ədəd kombayn, o cümlədən 19 ədəd New holland TC-5050, 11 ədəd Claas Dominator 130 markalı kombayn "müxanizator" MMC-yə təhvil verilmişdir.

Gürcüstan parlamentinin deputatları taxil biçinində Azərbaycan hökumətinin köməyini əsl dost yardımı adlandırır və yüksək qiymətləndirirlər. Gürcüstan parlamentinin aqrar məsələlər komitəsinin sədri Qela Samxarauli deyib: **"Bizim Azərbaycan ilə çox sıx, mehriban qonşuluq və dostluq münasibətlərimiz var. Azərbaycan heç vaxt öz yardım əlini bizdən əsirgəməyib. Gürcüstan hökuməti bu günlərdə Azərbaycana müraciət edib, taxıl yığımı ilə əlaqədar texnika istəyib. Azərbaycan hökuməti də bizim bu müraciətimizi cavabsız qoymayıb və dərhal bizə yardımını edib. Biz bunu yüksək qiymətləndiririk. Düşünürəm ki, bu kombaynlar hesabına məhsulu vaxtında və itkisiz yığa biləcəyik".**

Taxıl biçininin başa çatması ilə fermerlərimizin qayğıları azalmır. Mövsümi işlər davam edir. İndi torpağın əsas becərilməsi, yeni şumun qaldırılmasına hazırlıq gedir. "Aqrolizinq" ASC-nin rayon bölmələrinin istifadəsində saz vəziyyətdə olan 247 ədəd traktor, 818 ədəd digər kənd təsərrüfatı maşınları vardır. Fermerlərimiz və kənd təsərrüfatı məhsulu istehsalçılarımız rayon bölmələrinə müraciət etməklə Cəmiyyətimizin aqrotexniki xidmətlərindən istifadə edə bilərlər. Kollektivimizin əməkdaşları dövlətimizin aqrar sahəyə, kənd zəhmətkeşlərinə göstərdiyi qayğıların vətəndaşlara çatdırılmasında biləvasitə xidmət strukturu olduğunu dərindən dərk edir və qarşıya qoyulan vəzifələrin layiqincə icra edilməsinə səfərbər olublar.

**İSRAFİL İSMAYILOV,**
**"Aqrolizinq" ASC-nin aqrotexniki xidmətlərin və təchizatın təşkili şöbəsinin müdiri, texnika elmləri doktoru, professor.**